UOT 94(479.24); UOT 94

GÜLƏR ƏJDƏRZADƏ

Mingəçevir Dövlət Universiteti Humanitar fənnlər kafedrasının müəllimi,
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun dissertantantı
https://orcid.org/0000-0002-6992-6325
gular.ajdarzada@mdu.edu.az

BORÇALININ SİYASİ TARİXİ (XANLIQLARDAN BƏRİ)

DOI: https://doi.org/10.36719/2708-065X/110/65-68

Məqalənin əsas məqsədi Borçalının siyasi tarixini (xanlıqlardan bəri) araşdırmaqdır. Borçalı bölgəsi Cənubi Qafqazın mühüm etno-siyasi mərkəzlərindən biri kimi qədim dövrlərdən etibarən siyasi rəqabətlərin və mübarizələrin kəsişmə nöqtəsində yerləşmişdir. Antik mənbələrə görə, bu ərazi ilkin dövrlərdə iber və mosxların təsiri altında olmuş, sonrakı əsrlərdə kimmer, iskit və sak tayfalarının yürüşləri nəticəsində türkdilli əhalinin məskunlaşdığı bir bölgəyə çevrilmişdir. Əhəməni imperiyası, Makedoniyalı İsgəndərin yürüşləri və Sasani-Bizans müharibələri dövründə Borçalı tez-tez nüfuz dairəsi dəyişən, lakin strateji əhəmiyyətini itirməyən bir coğrafi vahid olmuşdur.

XVIII əsrdən etibarən Rusiya, Osmanlı və Qacar dövlətlərinin toqquşma məkanı olan Borçalı, 1801-ci ildə Rusiya imperiyasına birləşdirilmiş, 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə digər Şimali Azərbaycan torpaqları ilə birlikdə Rusiya işğalına məruz qalmışdır. Beləliklə, Borçalı əzəldən bəri türk etnosunun sıx məskunlaşdığı, lakin siyasi rəqabətlərin daim təzyiqində qalmış mühüm bir bölgə kimi tarixdə mühüm yer tutmuşdur.

Açar sözlər: Borçalı, Xanlıqlar, Cənubi Qafqaz, Səfəvilər, Osmanlı-Səfəvi müharibələri, Rusiya işğalı, Türkmənçay müqaviləsi.

Giriş. VII əsrdən başlayaraq bölgə Ərəb xilafətinin nəzarətinə keçmiş, islam dininin yayılması üçün zəmin formalaşdırmışdır. VIII əsrin sonlarından etibarən formalaşan Tiflis əmirliyi daxilində Borçalı, Cəfərilər, Sacilər və Şəddadilər kimi müsəlman sülalələrinin idarəsində olmuş, bu da bölgədə türk-müsəlman varlığının möhkəmlənməsinə səbəb olmuşdur. Səlcuq dövründə Borçalı mühüm hərbi-strateji məkan olaraq türklərin Qafqazda möhkəmlənməsində əhəmiyyətli rol oynamış, lakin XII əsrin əvvəllərində Gürcü çarlarının hücumlarına məruz qalmışdır.

Sonrakı dövrlərdə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin apardığı hərbi kampaniyalar nəticəsində Borçalı bölgəsində türklərin siyasi və demoqrafik mövqeyi yenidən gücləndirilmişdir. Səfəvi-Osmanlı müharibələri zamanı bölgə təkrarən dövlətlərarası qarşıdurmanın episentrinə çevrilmiş, bu da əhalinin məzhəb və siyasi mənsubiyyətə görə miqrasiyasına səbəb olmuşdur.

Tarixi qaynaqlarda XVII əsrin əvvəllərindən etibarən Borçalı sultanlığının adına rast gəlinir. Sultanlığın XVII əsrin əvvəllərində I Şah Abbas tərəfindən qurulması ehtimal edilir. Qeyd etmək lazımdır ki, Borçalı sultanlığı müstəqil bir qurum olmayıb Qarabağ bəylərbəyliyinin tərkibində idi. Səfəvilərin burada belə idarəetmə sistemini tətbiq etməsi şübhəsiz ki, sərhədlərin təhlükəsizliyinin təmin edilməsi zərurəti ilə bağlı idi.

XVIII əsrin əvvəllərində iqtisadi böhran və üsyanlarla qarşı-qarşıya qalmış Səfəvilər dövlətinin olduqca zəifləməsindən istifadə edən Rusiya imperiyası Xəzərsahili vilayətlərə yürüş etdi. Rusiyanın bölgədə güclənməsini özü üçün təhlükə hesab edən Osmanlı dövləti Cənubi Qafqaz istiqamətində fəallığını artırdı. Beləliklə, Azərbaycan torpaqları yenidən dövlətlərarası rəqabət meydanına çevrildi.

Əsas hissə. 1723-cü ildə Borçalı bölgəsini əhatə edən Tiflis vilayətinin mərkəzi olan Tiflis qalasının açarı Osmanlı paşasına təslim edildi. 1724-cü ildə Rusiya və Osmanlı dövlətləri arasında imzalanmış İstanbul müqaviləsinə görə Borçalı da digər Azərbaycan torpaqları kimi Osmanlı idarəetməsinə verildi.

Səfəvi dövlətinin torpaqlarının işğal altına düşdüyü bu böhranlı şəraitdə tarix səhnəsinə çıxan görkəmli Azərbaycan sərkərdəsi Nadir xan Əfşar əfqanları ölkədən qovduqdan sonra osmanlılardan və ruslardan Azərbaycan torpaqlarını tərk etmələrini tələb etdi. 1730-cu ildə Osmanlı dövləti ilə müha-

ribəyə başlayan Nadir xanın 1735-ci ildə əldə etdiyi qəti qələbə nəticəsində osmanlılar tutduqları Azərbaycan torpaqlarını tamamilə tərk etdilər. Kartli və Kaxetiyanın xristian hakimləri də Nadir xana tabe olduqlarını bildirdilər.

1736-cı ilin martında Muğanda – Suqovuşanda keçirilən qurultayda Nadir şah seçildi. Bu qurultay sülalə dəyişikliyi ilə yanaşı, Borçalı bölgəsinin tarixi taleyində də mühüm rol oynadı. Muğan qurultayında Səfəvilərin hakimiyyətdən uzaqlaşdırılmasını istəməyən Qacar tayfasının Ziyadoğlu nəslindən olan Qarabağ bəylərbəyi Uğurlu xan Nadirin şah seçilməsinə qarşı çıxdı. Ziyadoğluların qədim və güclü bir nəsil olması səbəbindən onları birbaşa cəzalandıra bilməyən Nadir şah onların siyasi güclərini zəiflətmək üçün Qazax və Borçalı bölgələrinin idarəsini Kartli hökmdarına verdi [3, s. 13]. Bununla yanaşı, Kartli və Kaxetiya Əfşar imperiyasının şimal torpaqlarını təşkil edirdi. Bu fakt onu göstərir ki, Nadir şah bu torpaqları bir vassalından alaraq digərinin idarəsinə vermişdi.

Nadir şahın ölümündən sonra hakimiyyət uğrunda mübarizə şəraitində Əfşar imperiyası parçalandı. Nadirdən sonra özünü hökmdar elan etmiş İbrahim şah Borçalı və Gürcüstanın idarəsinin Teymuraza həvalə olunduğunu bildirən fərman verdi. Şah fərmanı ilə bölgəyə gələn Teymuraz Şərqi Gürcüstan da daxil olmaqla Borçalı üzərində nəzarət qurmağa çalışsa da, mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edərək müstəqilləşməyə can atan yerli hakimlərin müqaviməti nəticəsində buna qısa müddətdə nail ola bilmədi [5, s.87].

Nadir şahın ölümündən sonra – XVIII əsrin 40-cı illərinin sonunda Azərbaycan irili-xırdalı dövlətlərə – xanlıqlara və sultanlıqlara bölündü. Nisbi müstəqil olan Borçalı sultanlığı da Nadir şah Əfşarın ölümündən sonra baş verən siyasi və hərbi hadisələrin mərkəzinə çevrildi [5, s.26].

1752-ci ildə yaranmış Borçalı sultanlığının başçısı Musa xan (1752-1755) gürcülərə meyil etdiyinə görə Kartli və Kaxetiya çarları Teymuraz və İrakli onu mükafatlandıraraq Borçalı hakimi olmasını təmin etmişdirlər. Ancaq çox keçmədən Musa xan və bəzi Borçalı feodalları İrəvan xanı ilə əməkdaşlıq etdiyinə görə Teymuraz və İrakli Borçalı üzərinə qoşun göndərmişdi [2, s.86]. Buradan görünür ki, Nadir şahın bölgəni gürcü idarəsinə verməsindən sonra Borçalı bu təsirdən qurtara bilməmişdir. Hətta bir çox Azərbaycan xanları Borçalıda möhkəmlənmək istəsələr də, buna müyəssər ola bilməmişdilər.

1782-ci ilin sonunda Kartli-Kaxetiya çarı II İraklinin Gürcüstanın Rusiya himayəsinə qəbul edilməsi xahişi ilə Rusiya imperatoru II Yekaterinaya müraciət etməsi Cənubi Qafqazda güclənmək istəyən Rusiyanın planları ilə üst-üstə düşürdü. 1783-cü ildə tərəflər arasında Şimali Qafqazın Georgiyevsk şəhərində imzalanan traktata əsasən Kartlı və Kaxetiya çarlıqları (Şərqi Gürcüstan) Rusiyanın himayəsinə girdi. Bu hadisə Rusiyanın Cənubi Qafqazda işğalçılıq palanlarını həyata keçirmək üçün əhəmiyyətli rol oynadı [6].

XVIII əsrin 80-ci illərində Ağaməhəmməd xan Qacarın qüvvətlənməsi Cənubi Qafqazı yeni təhlükə qarşısında qoyduğundan Kartli-Kaxetiya çarı II İrakli 1789-cu ildə Quba və Şəki xanları ilə görüşərək qacarlara qarşı birgə müqavimət göstərmək məsələsini müzakirə etdi. Yeni qüvvəyə qarşı durmaq iqtidarında olmadığını anlayan II İrakli hətta Nadir şahın gürcülərə verdiyi Şəmşəddil, Qazax və Borçalı torpaqlarını Gəncə xanlığına geri qaytaracağına söz verdi. Lakin eyni ildə Qubalı Fətəli xanın Bakıda qəfildən vəfat etməsi bütün planları alt-üst etdi [4, s. 65].

XVIII əsrin 90-cı illərində artıq öz mövqeyini gücləndirərək keçmiş Səfəvi torpaqlarını birləşdirmə siyasətini həyata keçirən Ağaməhəmməd xan Qacar Şərqi Gürcüstanı himayəsinə alaraq Şimali Azərbaycan torpaqlarına göz dikən Rusiyanın hərəkətlərindən narahat olaraq 1795-ci ildə Cənubi Qafqaza yürüş təşkil etdi. Gürcüstan üzərinə yürüşü zamanı Tiflisi ələ keçirən Qacar Borçalı sultanlığını İrəvan xanlığının tabeliyinə verərək Mustafa xanı Borçalı sultanı elan etdi. Ağaməhəmməd xanın geri qayıtmasından istifadə edən gürcülər yenidən sərhədyanı bölgələrə hücumlar etməyə başladılar. 1797-ci ildə Cənubi Qafqaza ikinci dəfə yürüşə çıxan Ağaməhəmməd şah Şuşa şəhərində öldürüldü. Bununla yanaşı, Qacarın yürüşləri gürcülərin qüvvələrini xeyli zəiflətdi, Borçalı və ətrafındakı digər Azərbaycan torpaqları 1801-ci ildə baş verən rus işğalına qədər İrəvan və Gəncə xanlıqlarının nəzarətində qaldı [3, s. 143].

XIX ərin əvvəlindən etibarən Rusiya qəti şəkildə Cənubi Qafqazın işğalına başladı. 1801-ci il sentyabrın 12-də imperator I Aleksandrın verdiyi manifestə əsasən Şərqi Gürcüstan Rusiyaya birləşdirildi. Şərqi Gürcüstanla birlikdə Azərbaycanın Qazax, Şəmşəddil, Borçalı əraziləri də Rusiyaya birləşdirildi. Bu akt Rusiyanın Şimali Azərbaycan torpaqlarının işğalı istiqamətində atdığı ilk addım idi.

Borçalı torpaqları Rusiya tərəfindən işğal edildikdən sonra Cənubi Qafqazda ağalıq uğrunda aparılan Rusiya-Qacar müharibələrinin döyüş meydanına çevrildi. 1804-cü ildə Qacar ordusu bölgəni ruslardan təmizləyərkən əhali rus ağalığına qarşı üsyana başladı. Lakin bölgənin təkrar rusların əlinə keçəcəyini görən əhalinin bir qismi təhlükəni öncədən sezərək Qarabağa köçdü [1, s.111].

1807-ci ildə Qacar ordusu Borçalını ruslardan azad etdi. 1809-cu ildə Borçalı təkrar döyüş meydanına çevrildi. 1809-cu il kampaniyası Qacarların üstünlüyü ilə başa çatsa da, sonrakı döyüşlər onların məğlubiyyəti və Azərbaycanın böyük faciələrinin əsasını qoymuş Gülüstan müqaviləsinin imzalanması ilə başa çatdı.

İkinci Rusiya-Qacar müharibəsi zamanı Qacar ordusu 1826-cı ildə Borçalını ruslardan təmizləsə də, uğurlarını davam etdirə bilmədi və geri çəkilməli oldu. Abbas Mirzəyə dəstək verən Borçalı türkləri də buna görə İrəvan xanlığına sığınmaq məcburiyyətində qaldılar. Lakin rusların İrəvan xanlığını da işğal etmələri Borçalı türklərinin Araz çayını keçərək Cənubi Azərbaycanda məskunlaşmalarına səbəb oldu.

Şimali Azərbaycanın Rusiya tərəfindən tamamilə işğalını nəzərdə tutan 1828-ci il Türkmənçay müqaviləsinə görə digər Şimali Azərbaycan torpaqları kimi Borçalı da qəti olaraq Rusiya tərəfindən işğal edildi. Bu hadisə bölgənin tarixi taleyində daha ağır rol oynadı.

Nəticə. Borçalı bölgəsinin etno-siyasi tarixinə qısa baxış onu göstərir ki, bu ərazi hələ antik dövrlərdən etibarən müxtəlif türk tayfaları ilə məskunlaşdırılmış, Cənubi Qafqazda türklərin yaşadığı ən qədim yurd yerlərindən biri olmuşdur. Borçalı etnonimi haqqında mənbələrdə əksini tapmış məlumatlar bu bölgədə hələ qədim dövrlərdən etibarən türk əhalisinin məskunlaşmasını təsdiq edir. Borçalı bölgəsinin adı da birbaşa türk tayfasının adını əks etdirən etnonimlə və ya qədim türklərə məxsus etnosimvolla – "bozqurd" (börü) ilə bağlıdır. Erkən orta əsrlərdən başlayaraq bütün mənbələrdə Borçalı toponimi bəzən kalka edilsə də, "qurdların (börülərin) yaşadığı yer" anlamında işlədilir. Tarixi qədim dövrlərə gedib çıxan "Borçalı" toponimi coğrafi adlandırma ilə yanaşı, milli çalar da daşımışdır ki, bu da bölgə əhalisinin etnik mənsubiyyətini göstərir. Müxtəlif dillərdə olan mənbələrdə rast gəlinən "börü çalası", "qurd adamların yeri", "qurd çalası" terminləri bölgədə məskən salmış qədim türk tayfasının adının kalka edilmiş variantıdır.

Tarixi faktlar sübut edir ki, bölgə müxtəlif tarixi mərhələlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin tərkibinə daxil olmuş və bütün dövrlərdə öz hərbi-strateji əhəmiyyətinə, habelə ticarət yollarının buradan keçməsinə görə mühüm əhəmiyyət daşımışdır. Bu səbəbdən Borçalı bölgəsi demək olar ki, daim dövlətlərarası rəqabət meydanına çevrilmiş, dəfələrlə əldən-ələ keçmişdir. Mürəkkəb hərbi-siyasi hadisələrin baş verdiyi əsas ərazilərdən birinə çevrilməsi Borçalı əhalisinin tarixi taleyinə, bölgənin demoqrafik vəziyyətinə də özünəməxsus təsir göstərmişdir.

Nadir şah imperiyasının süqutundan sonra Borçalı bölgəsində yaranmış Borçalı sultanlığını ələ keçirmək Gəncə və İrəvan xanlıqlarının və Kaxetiya çarlığının maraq dairəsində idi. 1801-ci ildə Şərqi Gürcüstanla birlikdə Borçalı, eyni zamanda Qazax və Şəmşəddil sultanlıqlarının ərazisi Rusiyaya birləşdirildi. Rusiya ilə Qacarlar arasında imzalanan 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə digər Şimali Azərbaycan torpaqları kimi Borçalı mahalı da Rusiyaya ilhaq edildi.

ƏDƏBİYYAT

1.Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı:"Şərq-Qərb",2007, 344s.
2.Lorkipanidze M. Georgia in the XI.-XII. Centuries. Tbilisi: Ganatleba Publishers, 1987, 184 p.
3. Şərifli M. IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı: AMEA-nın Tarix İnstitutu, 2013, 398 s.
4.Такайшвили Е. С. Источники грузинских летописей. Три хроники (перевод с грузинского) СМОМПК. вып. XXVIII. Тифлис, 1900, стр. 1-216.
5. İpek A. İlk Dönem İslâmî İlimlerde Önemli Bir Merkez Tiflis // Kafkas Üniversitesi İlahiyat Fakültesi Dergisi, Yıl: 2017, Cilt: IV, Sayı: 8, s. 73-93.
6.İpek A. İlk İslami Dönemde Gürcistan. Erzurum: Zafer Medya Yayınları, 2016, 160 s.

ГЮЛАР АЖДЕРЗАДЕ
Преподаватель кафедры гуманитарных наук
Мингячевирского государственного университета,
Диссертант Института истории и этнологии имени А.А.Бакиханова НАНА

ПОЛИТИЧЕСКАЯ ИСТОРИЯ БОРЧАЛЫ (СО ВРЕМЕН ХАНСТВ)

Основная цель статьи – изучение политической истории Борчалы (со времен ханств). Борчалинский регион, расположенный на Южном Кавказе, исторически являлся важным этнополитическим центром и средоточием межгосударственного соперничества. Согласно античным источникам, изначально регион находился под влиянием иберов и мосхов; однако к VIII–VII векам до н.э., после вторжений киммерийцев, скифов и саков, он стал местом расселения тюркоязычного населения. В эпоху Ахеменидов, походов Александра Македонского и византийско-сасанидских конфликтов Борчалы оставались стратегически важной территорией, часто менявшей политический контроль.

В XVIII веке, в условиях борьбы России, Османской империи и государства Каджаров за региональное влияние, Борчалы вновь стали геополитической точкой. В 1801 году Борчалы были аннексированы Российской империей, а после Гюлистанского (1813) и Туркменчайского (1828) мирных договоров официально включены в состав России. Таким образом, Борчалы занимают важное место в историческом повествовании как один из древнейших тюркоязычных регионов Южного Кавказа, постоянно оспариваемый региональными державами.

Ключевые слова: Борчалы, ханства, Южный Кавказ, политическая история, Тифлисский эмират, Сефевиды, Османско-сефевидские войны, присоединение к России, Туркменчайский договор.

GULAR AJDERZADE
Lecturer of the Department of Humanities, Mingachevir State University,
Dissertation candidate of the Institute of History and Ethnology
named after A.A. Bakikhanov, ANAS

POLITICAL HISTORY OF BORCHALI (FROM THE PERIOD OF KHANETES)

The main purpose of the article is to study the political history of Borchali (since the period of the khanates). The Borchali region, located in the South Caucasus, has historically served as a significant ethno-political center and a focal point of interstate rivalries. According to ancient sources, the region was initially under the influence of the Iberians and Moschi; however, by the 8th - 7th centuries BCE, following the incursions of the Cimmerians, Scythians, and Saka, it became a settlement area for Turkic-speaking populations. During the Achaemenid era, Alexander the Great's campaigns, and the Byzantine - Sasanian conflicts, Borchali remained a strategically important territory frequently shifting political control.

In the 18th century, as Russia, the Ottoman Empire, and the Qajar state contended for regional influence, Borchali again became a geopolitical hotspot. In 1801, it was annexed by the Russian Empire, and following the treaties of Gulistan (1813) and Turkmenchay (1828), it was officially incorporated into Russia. Thus, Borchali holds a significant place in the historical narrative as one of the oldest Turkic-inhabited regions of the South Caucasus, recurrently contested by regional powers.

Keywords: Borchali, Khanates, South Caucasus, Political history, Tiflis Emirate, Safavids, Ottoman - Safavid wars, Russian annexation, Treaty of Turkmenchay.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Vasif Qafarov, t.e.d. Qabil Əliyev.